# "FNC BANK OLMAYAN KREDİT TƏŞKİLATI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Hər birinin nominal dəyəri 5 000 manat olan 950 ədəd adlı, faizli sənədsiz, təmin edilməmiş istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı, 2025-ci il**

MÜNDƏRİCAT


BƏYANAT ........ 3
XÜLASƏ ........ 4
1. XƏBƏRDARLIQLAR ........ 4
2. EMİTENT HAQQINDA MƏLUMAT ........ 4
3. QİYMƏTLİ KAĞIZLAR (İSTİQRAZLAR) HAQQINDA MƏLUMAT ........ 8
4. RİSK FAKTORLARI ........ 11
5. TƏKLİF ........ 12
İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ........ 14
6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ........ 14
7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ........ 15
8. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 16
9. EMİTENTİN BİZNESİNİN İCMALI ........ 17
10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ........ 18
11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ........ 18
12. GƏLİR PROQNOZU ........ 18
13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ........ 19
14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI ........ 22
16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ........ 24
17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ........ 28
İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT ........ 28
18. ƏSAS MƏLUMAT ........ 28
19. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT ........ 30
20. TƏKLİFİN ŞƏRTLƏRİ ........ 33
21. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ ........ 36
22. KREDİT REYTİNQLƏRİ ........ 37

**Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair**

**BƏYANAT**

Biz aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. "FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 5000 (beş min) manat olan 950 (doqquz yüz əlli) ədəd adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqrazlarının Emissiya prospektinə daxil edilən bütün məlumatları həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyətinin Direktoru:**

**Dadaşov Ramiz Nazim oğlu**

**Tarix: 25 iyul 2025-ci il**

**"FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyətinin Baş Mühasibi:**

**Məmmədhüseynova Şölə Nazim qızı**

**Tarix: 25 iyul 2025-ci il**

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQLAR

1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxumasından sonra həyata keçirilməlidir.

1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. EMİTENT HAQQINDA MƏLUMAT

2.1. **Emitentin tam adı:** "FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət), qısaldılmış adı: "FNC BOKT" QSC.

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Sumqayıt şəhəri, 6 MKR, ev 35L, Gənclik küçəsi, m. 2, AZ5007; Təşkilati-hüquqi forma - Qapalı Səhmdar Cəmiyyəti. Emitent Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti 2 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən 05 fevral 2021-ci il tarixində, 2906151351 saylı şəhadətnamə ilə qeydiyyata alınmışdır. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 30 sentyabr 2021-ci il tarixli, BKT-41 nömrəli lisenziya əsasında fəaliyyətə başlamışdır. Emitent yenidən təşkilin çevrilmə üsulu təşkilati-hüquqi formasını dəyişmiş və 07 iyul 2021-ci il tarixində "FNC Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisi kimi qeydiyyata alınmışdır.

2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** "FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyəti, əsasən, riteyl və mikro biznes kreditləri sahəsində fəaliyyət göstərir. "FNC BOKT" QSC hazırda təcrübəli peşəkar heyət, güclü müştəri portfeli və sabit maliyyə göstəriciləri ilə seçilən institutlardan biri kimi çıxış edir. Hal-hazırda təşkilatın aktivləri, kredit portfeli və xalis mənfəəti artım meyli nümayiş etdirir. Bu artım həm effektiv idarəetmə, həm də bazardakı strateji mövqeyin doğru qiymətləndirilməsi ilə mümkün olmuşdur. Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar qənaətbəxş idarə olunur. "FNC BOKT" QSC kredit portfelinin risk idarəetməsində partnyor, region, sektor və digər meyarlar əsasında diversifikasiya strategiyasını həyata keçirir. Bu yanaşma portfelin keyfiyyətini artırmağa və riskləri minimuma endirməyə xidmət edir.

2023-cü illə müqayisədə 2024-cü ildə "FNC BOKT" QSC-nin kredit portfeli 11542589 manatdan 42505020 manata yüksələrək kəskin artım göstərmişdir. Bu, təşkilatın kreditvermə imkanlarının genişləndiyini və bazar payının ciddi şəkildə artdığını sübut

edir. Bundan əlavə, Emitentin xalis mənfəəti 2023-cü ildə 105147 manat olduğu halda, 2024-cü ildə bu göstərici 1971668 manata çatmış və təxminən 18.7 dəfə artım qeydə alınmışdır. Bu artım təşkilatın gəlirliliyinin və əməliyyat səmərəliliyinin əhəmiyyətli dərəcədə yaxşılaşdığını göstərir.
"FNC BOKT" QSC-nin əsas missiyası müştərilərin real bizneslərinə və ya istehlak məqsədləri üçün tələblərə uyğun yüksək səviyyəli maliyyə xidmətləri göstərməklə onların iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına yardım etməkdir. "FNC BOKT" QSC-nin müştərilərə göstərdiyi keyfiyyətli və operativ xidmət onun kredit bazarında mövqeyinin yaxşılaşmasına səbəb olmuşdur.
Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün maliyyə institutları kimi, Emitentin fəaliyyəti də ölkənin makroiqtisadi dinamikasından birbaşa təsirlənir. Hazırda ölkə iqtisadiyyatı neft-qaz sektorunun qiymət dəyişikliklərinə qarşı hələ də müəyyən həssaslıq göstərsə də, aparılan iqtisadi şaxələndirmə və qeyri-neft sektorunun inkişafı istiqamətindəki islahatlar sabit və davamlı iqtisadi inkişaf üçün möhkəm əsas yaradır. 2024-cü ildə Azərbaycanda iqtisadi artım 4,1% olub. Ümumi Daxili Məhsul 126,3 milyard manat təşkil edərək,əvvəlki illə müqayisədə 4,1% artıb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3%, qeyri-neft-qaz sektorunda isə 6,2% artıb. Bu şəraitdə Şirkət, fəaliyyətini uyğunlaşdıraraq makroiqtisadi dəyişikliklərə cavab verən risk əsaslı yanaşmalar və proaktiv kredit siyasəti həyata keçirir.
Emitent aşağıdakı strateji məqsədləri hədəfləmişdir:
-Kredit portfelinin həcmini və coğrafi əhatə dairəsini genişləndirmək;
-Rəqəmsal xidmətlərin payını artırmaq və texnoloji transformasiyanı sürətləndirmək;
-Davamlı maliyyə dayanıqlığını təmin etmək üçün risklərin idarə olunması sistemlərinin gücləndirilməsi;
-Müştəri məmnuniyyətini artırmaq məqsədilə xidmət keyfiyyətinin davamlı təkmilləşdirilməsi.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxslərdə heç bir mövqeyi mövcud deyildir. Emitent hər hansı qrupa daxil deyil, bu səbəbdən qrupda olan şəxslərdən asılılığı yoxdur və müstəqil şəkildə fəaliyyətini həyata keçirir.

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Son iki il ərzində Emitentin kənar audit yoxlamaları "TİMP" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 3104352131) (icazə № AT/252) tərəfindən həyata keçirilmişdir. "FNC BOKT" QSC-nin 31 dekabr 2023-cü il və 31 dekabr 2024-cü il tarixlərinə təqdim edilən və həmin tarixlərdə başa çatmış illər üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatları, kapitalda dəyişikliyi və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarının, eləcə də əsas mühasibat prinsipini və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının kənar auditi aparılmışdır. Kənar audit rəyinə əsasən, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il və 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyətini və həmçinin həmin tarixlərdə başa çatmış illər

üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər ədalətli əks etdirir. Son iki ildə aparılan yoxlamalar zamanı hesabata müsbət rəy verilmiş və hər hansı vurğulanan məsələ bildirilməmişdir.

2.7. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

Aşağıdakı cədvəldə 2022, 2023 və 2024-cü illər üzrə maliyyə məlumatları audit edilmiş maliyyə hesabatları əsasında təqdim edilmişdir:

*(Azərbaycan manatı ilə)*

| Göstəricilər | 31.12.2024 Audit olunmuş | 31.12.2023 Audit olunmuş | 31.12.2022 Audit olunmuş |
|---|---|---|---|
| Cəmi aktivlər | 42633321 | 11677656 | 295623 |
| Cəmi öhdəliklər | 40256506 | 11272509 | 57651 |
| Cəmi kapital | 2376815 | 405147 | 237972 |
| Pul vəsaitləri | 62152 | 132395 | 16069 |
| Kredit portfeli | 42505020 | 11542589 | 276569 |
| Mənfəət vergisindən əvvəlki gəlir (zərər) | 2464626 | 193465 | (44111) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | 1971668 | 105147 | (44111) |

*(Min Azərbaycan manatı ilə)*

| Göstəricilər | 30.06.2025 Audit olunmamış | 30.06.2024 Audit olunmamış |
|---|---|---|
| Cəmi aktivlər | 49994.76 | 22592.98 |
| Cəmi öhdəliklər | 43772.27 | 21498.23 |
| Cəmi kapital | 6222.49 | 1094.75 |
| Pul vəsaitləri | 192.38 | 83.82 |
| Kredit portfeli | 49068.94 | 22487.62 |
| Cari ilin xalis mənfəəti (zərəri) | 1855.06 | 931.08 |

Emitentin 2024-cü ildə dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri fəaliyyətində mühüm dəyişiklik baş vermişdir. Belə ki, Emitentin nizamnamə kapitalı

hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1500 (bir min beş yüz) ədəd adi adlı sənədsiz səhmlərin buraxılması yolu ilə 1500000 (bir milyon beş yüz min) manat məbləğində artırılaraq, nizamnamə kapitalı 1800000 (bir milyon səkkiz yüz min) manat olmuşdur.

Bununla yanaşı, ilk 6 ay ərzində kapital artımından kənar yaranmış fərqin əsas səbəbləri aşağıdakılardır:

- Müştəri sayının artması nəticəsində xidmət haqlarından gəlirlərin çoxalması;
- Portfelinin genişlənməsi və idarə olunan aktivlərin həcminin böyüməsi;
- Əməliyyat həcminin artması.

Nizamnamə kapitalının artırılması şirkətin maliyyə dayanıqlığını gücləndirmək, fəaliyyətinin genişləndirilməsi və strateji inkişaf planlarının icrasını dəstəkləmək məqsədilə həyata keçirilmişdir. Kapital artımı nəticəsində Emitentin maliyyə imkanları genişlənmiş, öhdəliklərin idarə olunması qabiliyyəti yüksəlmiş və potensial investisiya layihələrinin maliyyələşdirilməsi üçün əlavə resurslar formalaşdırılmışdır. Kapitalın artırılması Emitentin səhmdarlarının uzunmüddətli inkişaf strategiyasına sadiqliyinin göstəricisi olmaqla yanaşı, gələcəkdə yeni maliyyə alətlərinin buraxılması, investor etimadının möhkəmləndirilməsi və bazar mövqelərinin daha da gücləndirilməsi üçün möhkəm baza formalaşdırmışdır.

2.8. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** Cəmiyyətin ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 (otuz) gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 31.12.2024 | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| **Par>30 (məbləğ)** | 2467.42 | 0 | 0 |
| **Par>30/Portfel (%)** | 0.006% | 0 | 0 |

- Regional geosiyasi gərginliklər, inflyasiya səviyyəsində mümkün artımlar və milli valyutanın məzənnəsində baş verə biləcək dəyişikliklər (devalvasiya) Emitentin maliyyə sabitliyinə və aktiv keyfiyyətinə birbaşa təsir edə bilər. Belə risklər, müştərilərin ödəmə qabiliyyətinin azalmasına və nəticə etibarilə kredit portfelinin risk səviyyəsinin yüksəlməsinə səbəb ola bilər.
- Hesabat dövründə Emitentin əsas gəlir mənbəyində – müştərilərə təqdim olunan kreditlərdən əldə edilən faiz gəlirlərində – hər hansı mənfi əhəmiyyətli dəyişiklik (iri müqavilələrin itirilməsi və ya gəlirlərin azalması) baş verməmişdir. Bununla yanaşı, hesabat dövründə mühüm korporativ dəyişiklik qeydə alınmışdır – Emitentin nizamnamə kapitalı artırılaraq ümumi məbləğ 1 800 000 (bir milyon səkkiz yüz min) manat olmuşdur. Kapitalın artırılması şirkətin maliyyə dayanıqlığını gücləndirmiş, ödəmə qabiliyyətinə müsbət təsir göstərmiş və strateji inkişaf planlarının icrası üçün əlavə resurslar formalaşdırmışdır. Mövcud strateji tərəfdaşlıqlar qorunmuş, əlavə risk yaradacaq ölçüdə mənfi struktur dəyişikliyi müşahidə olunmamışdır.

Emitent ödəmə qabiliyyətinə təsir edən maliyyələşmə mənbələrini davamlı olaraq diversifikasiya edir.

2.9. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** Cəmiyyətin əsas fəaliyyəti maliyyə xidmətləri və kreditlərin verilməsindən ibarətdir. Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir.

Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bütün hüquqi və fiziki şəxslərə qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Cəmiyyət tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya, zaminlik və qanunvericilikdə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız Cəmiyyətin lisenziyasında bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər. Kreditlərin verilməsi üçün lisenziya almış Cəmiyyət aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

-borc öhdəliklərinin alğı-satqısı (faktorinq, forfeytinq);

-lizinq;

-veksellərin uçotu;

-qarantiyanın verilməsi;

-sığorta agenti xidmətinin göstərilməsi;

-borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

2.10. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyətləri:** Cəmiyyətin nizamnamə kapitalının 100% həcmi bir nəfər fiziki şəxsə məxsusdur:

| Soyadı, Adı, Ata adı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|
| Məmmədov Xəqani Əli oğlu | 100% |

Mühüm iştirak payının sahibi Emitentə nəzarəti emitentin nizamnaməsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətin təsisçisi 1 fiziki şəxs olduğundan, Cəmiyyətin yeganə təsisçisi Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər.
Mühüm iştirak payının sahibi tərəfindən Emitentə nəzarət Emitentin nizamnaməsinə və AR Mülki Məcəllesinə uyğun olaraq həyata keçirilir.

## 3. QİYMƏTLİ KAĞIZLAR (İSTİQRAZLAR) HAQQINDA MƏLUMAT

3.1. **İstiqrazların növü:** adlı, faizli, sənədsiz, təmin edilməmiş, tədavül müddəti: 5 il.

3.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN).

3.3. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil.

3.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazla təsdiqlənmiş hüquqları alğı-satqı müqaviləsi bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazın nominal dəyərindən illik 15% olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

3.5. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 15 (on beş) % təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 360 (üç yüz altmış) gündən bir ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 1800 (bir min səkkiz yüz) gün təşkil edir. Ödənişlər nağdsız qaydada, milli valyutada manatla ödəniləcəkdir. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcəkdir. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. İstiqrazlar üzrə qeyd olunan ödənişlər istiqraz sahiblərinin bank hesablarına köçürüləcəkdir.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təmin edilməmişdir.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulur.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri – 5000 (beş min) Azərbaycan manatı

D- İstiqrazların illik gəlirlik dərəcəsi – 15 (on beş)

G- istiqrazların faiz ödəniş dövrünün müddəti – 360 (üç yüz altmış) gün.

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Emissiya prospektində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

"Bakı Fond Birjası" QSC-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında qiymətli kağızların ticarətə qəbulu listinqə alınması, listinqdə saxlanılması və delistinqi"" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir.

İstiqrazlar kütləvi təklif üsulu ilə birqiymətli hərrac vasitəsilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin

internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında (https://www.fnc.az) açıqlanır.

## 4. RİSK FAKTORLARI

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Hüquqi risk – qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;
- Sosial-siyasi risk – siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;
- Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər).

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

İqtisadi kiçilmə, alıcılıq qabiliyyətinin aşağı düşməsi, devalvasiyanın olması və nəticədə müştərilərin öhdəliklərinin kəskin artması, eləcə də ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

Eyni zamanda, Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları aşağıda qeyd olunan qaydada detallı olaraq verilmişdir:

- Kredit riski: Borcalan və ya qarşı tərəfin Emitent qarşısında maliyyə və ya müqavilə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan itki riski;
- Bazar riski: Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar qiymətlərindəki dəyişikliklər səbəbindən dəyişkən olacağı riskdir. Cəmiyyətin məruz qaldığı bazar riskinə əsasən, faiz dərəcəsi riski və valyuta riski aiddir.
- Faiz dərəcəsi riski: Cəmiyyət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır.
- Valyuta riski: Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Cəmiyyətin maliyyə vəziyyəti və pul vəsaitlərinin

hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.
- Likvidlik riski: Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır.

## 5. TƏKLİF

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Cəmiyyətin istiqraz emissiyasının səbəbi Cəmiyyətin "Kristal Bakı" ASC qarşısında olan borc öhdəliyinin vaxtında icra edilməsini təmin etməkdir.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar kütləvi təklif üsulu ilə birqiymətli hərrac vasitəsilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 (iki) iş günü qalmış BFB-nin internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında (https://www.fnc.az) açıqlanır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**
**"Bakı Fond Birjası" QSC -** İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin (BFB) vəzifələri aşağıdakı kimidir:
- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

Bu xidmətlərin göstərilməsinə görə BFB öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.
**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi -** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci

maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Anderrayter -** "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "FNC BOKT" QSC-nin yeni buraxılıcaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "CPM-İnvest İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə "FNC BOKT" QSC-dən xidmət haqqı tutacaqdır. "FNC BOKT" QSC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişlərini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;
- Yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyildir. Emissiyada Emitentə aidiyyəti olan və digər əlaqəli şəxslər iştirak etmir.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

***Vergilər:***

AR Vergi Məcəlləsinin 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, AR Vergi Məcəllәsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci maddəsində və

102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişikliklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

***Xərclər:***

- Bakı Fond Birjasının komissiyası – əqdin həcmindən 0.02%;
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətinin komissiyası – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq;
- Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

## İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

### 6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Auditorun ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2022 | "TİMP" MMC (VÖEN: 3104352131) | AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, 30-cu məhəllə, ev 17, Heydər Əliyev prospekti | Azərbaycan Respublikasının Auditorlar Palatası (icazə № AT/252) |
| 2023 | "TİMP" MMC (VÖEN: 3104352131) | AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, 30-cu məhəllə, ev 17, Heydər Əliyev prospekti | Azərbaycan Respublikasının Auditorlar Palatası (icazə № AT/252) |
| 2024 | "TİMP" MMC (VÖEN: 3104352131) | AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, 30-cu məhəllə, | Azərbaycan Respublikasının Auditorlar |

| | | | |
|---|---|---|---|
| | | ev 17, Heydər Əliyev prospekti | Palatası (icazə № AT/252) |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son 3 ildə audit əvəzlənməsi və ya dəyişdirilməsi mövcud deyil.

## 7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

*(Azərbaycan manatı ilə)*

| Göstəricilər | 31.12.2024 Audit olunmuş | 31.12.2023 Audit olunmuş | 31.12.2022 Audit olunmuş |
|---|---|---|---|
| Cəmi aktivlər | 42633321 | 11677656 | 295623 |
| Cəmi öhdəliklər | 40256506 | 11272509 | 57651 |
| Cəmi kapital | 2376815 | 405147 | 237972 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 62152 | 132395 | 16069 |
| Müştərilərə verilmiş kreditlər | 42505020 | 11542589 | 276569 |
| Mənfəət vergisindən əvvəlki gəlir(zərər) | 2464626 | 193465 | (44111) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | 1971668 | 105147 | (44111) |

*(Min Azərbaycan manatı ilə)*

| Göstəricilər | 30.06.2025 Audit olunmamış | 30.06.2024 Audit olunmamış |
|---|---|---|
| Cəmi aktivlər | 49994.76 | 22592.98 |
| Cəmi öhdəliklər | 43772.27 | 21498.23 |
| Cəmi kapital | 6222.49 | 1094.75 |
| Pul vəsaitləri | 192.38 | 83.82 |

| | | |
|---|---|---|
| Kredit portfeli | 49068.94 | 22487.62 |
| Məcmu gəlir | 1855.06 | 931.08 |

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** "FNC Bank Olmayan Kredit Təşkilatı", Qapalı Səhmdar Cəmiyyəti, qısaldılmış adı: "FNC BOKT" QSC

**8.3. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** Emitent Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti 2 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən 05 fevral 2021-ci il tarixində, 2906151351 saylı şəhadətnamə ilə qeydiyyata alınmışdır. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 30 sentyabr 2021-ci il tarixli, BKT-41 nömrəli lisenziya əsasında fəaliyyətə başlamışdır.

**8.4. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitent yenidən təşkilin çevrilmə üsulu təşkilati-hüquqi formasını dəyişmiş və 07 iyul 2021-ci il tarixində "FNC Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisi kimi qeydiyyata alınmışdır.

**8.5. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi/faktiki ünvanı: Azərbaycan Respublikası, Sumqayıt şəhəri, 6 MKR, ev 35L, Gənclik küçəsi, m. 2, AZ5007;

Elektron poçt ünvanı: info@fncbokt.az

İnternet səhifəsi: https://fnc.az/contact

Əlaqə telefonları: +994 51 255 25 25

**8.6. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil.

**8.7. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**8.8. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də dövlət və korporativ qiymətli kağızlar bazarı və törəmə maliyyə alətləri bazarı mövcuddur.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az

Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. EMİTENTİN BİZNESİNİN İCMALI

### 9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:

Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bütün hüquqi və fiziki şəxslərə qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Cəmiyyət tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya, zaminlik və qanunvericilikdə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız Cəmiyyətin lisenziyasında bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər. Kreditlərin verilməsi üçün lisenziya almış Cəmiyyət aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

-borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
-lizinq;
-veksellərin uçotu;
-qarantiyanın verilməsi;
-sığorta agenti xidmətinin göstərilməsi;
-borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

Son 3 il üzrə bu məhsullar üzrə gəlirlik və mənfəətlik aşağıdakı kimi olmuşdur:

*(Azərbaycan manatı ilə)*

| Göstəricilərin adı | 31.12.2024 (audit olunmuş) | 31.12.2023 (audit olunmuş) | 31.12.2022 (audit olunmuş) |
|---|---|---|---|
| Mənfəət vergisindən əvvəlki gəlir (zərər) | 2464626 | 193465 | (44111) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | 1971668 | 105147 | (44111) |

**9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Təqdim olunmuş yeni məhsullar və ya xidmətlər mövcud deyildir.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** "FNC BOKT" QSC Azərbaycan Respublikasında fəaliyyət göstərən kiçik və orta biznesin maliyyələşdirilməsi və istehlak kreditinin verilməsi üçün Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən maliyyə institutları və Bank Olmayan Kredit Təşkilatları ilə rəqabət aparır. Emitentin əsas məqsədi fiziki şəxslər və müəssisələr üçün ənənəvi bank sistemindən kənarda maliyyə dəstəyi və

kredit imkanları yaratmaqdır. 2024-cü ilin yekunlarına əsasən, Cəmiyyətin aktivləri 30 955 665 AZN artaraq 42 633 321 AZN olmuşdur. Artımın əsas payçısı müştərilərə verilmiş kreditlərdir. 2024-cü il üçün müştərilərə verilmiş kreditlərinin həcmi 30 962 431 AZN artaraq 42 505 020 AZN-ə çatmışdır ki, bu artım əsasən yaşayış sahəsinin alınması üçün verilən kreditlər hesabına formalaşmışdır.

**9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:** Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**10.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:** Emitentin digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**10.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Fəaliyyətini müstəqil şəkildə həyata keçirir və heç bir qrupa daxil deyil.

## 11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitent bütün əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir və ölkə iqtisadiyyatı əsasən neft və qaz gəlirlərindən formalaşır. Neft və qaz sektorlarındakı yüksək qiymətlər ümumi iqtisadiyyata dəstək verir və bu da kreditlərə olan tələbin artmasına səbəb olur. Son illərdə Azərbaycan hökuməti iqtisadiyyatı daha tarazlı hala gətirmək və neft-qaz sektorundan asılılığı azaltmaq məqsədilə mühüm iqtisadi və sosial islahatlar həyata keçirmişdir. 2024-cü ilin ötən dövründə qlobal iqtisadiyyat dayanıqlılıq göstərmişdir. Hesabat dövrü ərzində qlobal iqtisadi fəaliyyət, o cümlədən istehsalçı və istehlakçı davranışlarını əks etdirən göstəricilər ümumilikdə sabitliyini qorumuşdur.

2021-2024-cü illərdə Azərbaycan Respublikasının Mərkəzi Bankı bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir.

## 12. GƏLİR PROQNOZU

Gəlir proqnozu mövcud deyil.

## 13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Cəmiyyətin təsisçisi barədə məlumat:**

Ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq illik və növbədənkənar keçirilir. Ümumi Yığıncaq cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aiddir:

- Cəmiyyətin Nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
- Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- Cəmiyyətin Müşahidə Şurasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
- Mülki Məcəllənin 49-1.2-ci maddəsində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi və Nizamnamə ilə Ümumi Yığıncağın səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

Cəmiyyətin təsisçisi 1 fiziki şəxs olduğundan, Cəmiyyətin yeganə təsisçisi Ümumi Yığıncağın səlahiyyətlərini təkbaşına həyata keçirir:

| Soyadı, Adı, Ata adı | Vətəndaşlıq | Payların sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Məmmədov Xəqani Əli oğlu | Azərbaycan Respublikası | 1800 | 100% |

**Cəmiyyətin İcra orqanı barədə məlumat:**

Cəmiyyətin gündəlik idarə olunması ilə məşğul olan və Cəmiyyətin maraqlarını üçüncü tərəflər qarşısında təmsil edən Direktoru Ümumi Yığıncaq təyin edir, onun fəaliyyətini dayandırır və ya vəzifədən azad edir. Direktor Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, Müşahidə Şurasına və Ümumi Yığıncağa hesabat verir. Mülki Məcəllə ilə və ya Nizamnamə ilə Cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli Cəmiyyətin Direktorunun səlahiyyətinə aiddir. Direktorun aşağıdakı fəaliyyət istiqamətləri vardır:

- Nizamnaməyə əsasən Ümumi Yığıncağın və Müşahidə Şurasının müzakirəsinə veriləcək məsələlərin ilkin müzakirəsini həyata keçirir;
- İllik, orta və uzun müddətli fəaliyyət planlarını təsdiq edir;
- Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarını yerinə yetirmək üçün lazımi tədbirlər görür;
- Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının həyata keçirilməsini təmin edir;
- Cəmiyyətin fəaliyyətinin bütün sahələri haqqında Müşahidə Şurasına məlumat verir;
- Azərbaycan Respublikasında həyata keçirilən əməliyyatlara aid olan məsələlərlə bağlı dövlət orqanları, banklar, özəl şirkətlər və fiziki şəxslərlə əlaqə saxlayır;
- Vəkalətnaməsi olmadan Cəmiyyətin adından müqavilələr və sənədlər imzalayır və Cəmiyyəti üçüncü tərəf qarşısında təmsil edir. Bütün digər şəxslərin Cəmiyyətin adından müqavilə və sənədləri imzalamaq hüququna malik olmaları üçün onların Direktor tərəfindən imzalanan vəkalətnamələri olmalıdır;
- Cəmiyyətin iş prosesini idarə və təşkil edir;
- Ümumi Yığıncağın nəzərinə çatdırılacaq və onlar tərəfindən qəbul olunacaq məlumatlandırıcı və analitik xarakterli materiallar və digər aktlar hazırlayır;
- Ümumi Yığıncağın müvafiq səlahiyyətləri dairəsində olan məsələlərə dair təklif verir;
- Müvafiq göstərişlər verildiyi halda, Ümumi Yığıncağın qərarlarını icra edir;
- İllik iş planında göstərildiyi kimi maliyyə və fəaliyyət planlarının həyata keçirilməsi üçün tədbirlər görür;
- Cəmiyyət tərəfindən kredit verilmiş şəxslərin öz öhdəliklərini vaxtında icra etmələri üçün qanuni tədbirlər görür;
- İşçiləri işə götürür və vəzifələrə təyin edir, onların işlərinə nəzarət edir və əmək haqqı ödənilməsi strukturunu müəyyən edir;
- Səlahiyyətinə aid olan və Ümumi Yığıncaq tərəfindən ona həvalə edilən digər vəzifələri icra edir.

İcra orqanının tərkibi aşağıdakı kimidir:

| Soyadı, Adı, Ata adı | Hazırda tutduğu vəzifə |
|---|---|
| Dadaşov Ramiz Nazim oğlu | Direktor |

**Cəmiyyətin Müşahidə Şurası barədə məlumat:**

Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Müşahidə Şurasının üzvləri Ümumi Yığıncaq tərəfindən üç ildən artıq olmayan müddətə seçilirlər. Müşahidə Şurasının aşağıdakı fəaliyyət istiqamətləri vardır:

- Cəmiyyətin fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirmək;
- Səhmdarların növbəti və növbədənkənar ümumi yığıncaqlarını çağırmaq;
- Cəmiyyətin Direktorunun fəaliyyətinə nəzarəti həyata keçirmək və ondan fəaliyyəti barədə hesabat tələb etmək;
- Cəmiyyətin kreditlər üzrə faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Cəmiyyətin ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
- Cəmiyyətin büdcəsini təsdiq etmək;
- Filiallar, şöbələr və nümayəndəliklər yaratmaq, onların fəaliyyətlərinə xitam vermək və əsasnamələrini təsdiq etmək;
- Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək, təsdiq etmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- Cəmiyyətin iştirakçısı olduğu hüquqi şəxslərin iştirakçılarının ümumi yığıncaqlarında iştirak edəcək nümayəndəsini təyin etmək və onun səlahiyyətlərini müəyyən etmək;
- Cəmiyyətin digər hüquqi şəxslərin kapitalında iştirakı barədə qərarlar qəbul etmək;
- Cəmiyyətin Nizamnamə kapitalının 50 (əlli) faizindən və ya Müşahidə Şurasının qərarına əsasən digər məbləğdən artıq məbləğdə Cəmiyyət adından əqdlərin bağlanmasına və xərclərin edilməsinə, o cümlədən kreditlərə və borclara, əsas vəsaitlərin əldə edilməsinə, lizinqinə, dəyişdirilməsinə, verilməsinə, girov qoyulmasına, yerləşdirilməsinə və ya yerləşdirilməsi adi biznes fəaliyyətindən kənarda olmaq halları daxil olmaqla biznes məqsədləri üçün hər bir əmlak əldə edilməsinə və ya satılmasına dair qərarlar qəbul etmək;
- Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kəanr auditoru təyin və azad etmək.

Müşahidə Şurasının tərkibi aşağıdakı kimidir:

| Soyadı, Adı, Ata adı | Hazırda tutduğu vəzifə |
|---|---|
| Nəbiyev Mahayət Ənvər oğlu | Müşahidə Şurasının sədri |
| Salmanov Turxan Çoban oğlu | Müşahidə Şurasının üzvü |
| Nəbiyev Fərid Elbrus oğlu | Müşahidə Şurasının üzvü |

**13.1.1. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallar mövcud olmadığı səbəbindən maraqların toqquşması barədə hesabat mövcud deyil.

## 14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

***Audit komitəsi barədə məlumat***

| Soyadı, Adı, Ata adı | Hazırda tutduğu vəzifə | Funksiyaları |
|---|---|---|
| Quliyev Elfaq Yaşar oğlu | Audit Komitəsinin sədri | Audit Komitəsinə rəhbərlik etmək, Müşahidə şurasının iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək, Təşkilatın maliyyə risklərini araşdırmaq və Müşahidə şurasına təklif və hesabat vermək və s. |
| Həmidova Ayşən Cabbar qızı | Audit Komitəsinin üzvü | Müşahidə şurasının iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək, Təşkilatın maliyyə risklərini araşdırmaq və s. |
| Salmanov Turxan Çoban oğlu | Audit Komitəsinin üzvü | Müşahidə şurasının iclaslarında iştirak etmək, İclas zamanı müzakirələrdə iştirak etmək, Təşkilatın maliyyə risklərini araşdırmaq və s. |

Audit Komitəsi tərəfindən görülən işlərin icmalı:

- Cəmiyyətin audit strategiyasını müəyyən etmək;
- Daxili audit planlarını təsdiq etmək və fəaliyyətinə nəzarəti həyata keçirmək;
- Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair İştirakçıların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;
- İştirakçıların Ümumi Yığıncağına və Müşahidə Şurasının və Direktorun qəbul etdiyi Cəmiyyətin fəaliyyəti ilə bağlı bütün qərarlarla tanış olmaq;
- Cəmiyyətin bütün daxili qaydaları və strategiyası ilə tanış olmaq;

- Cəmiyyətin illik hesabatına rəy vermək;
- Cəmiyyətin struktur bölmələri üzrə xüsusi audit yoxlamaları və təftişlər keçirilməsinə sifariş vermək;
- Daxili Audit bölməsinin müdiri və əməkdaşlarının vəzifə təlimatlarını, Departamentin illik iş planı və proqramlarını, daxili auditin hesabatlarını, nəzarət sisteminin təkmilləşdirilməsi üzrə tövsiyələr vermək;
- Daxili Audit bölməsinin əməkdaşlarının səmərəliliyini və peşə yararlılığını nəzərdən keçirmək;
- Daxili Auditorlar tərəfindən təqdim edilmiş mühüm nəticələrin və tövsiyələrin müntəzəm əsasda müzakirə etmək;
- Maliyyə hesabatlarının hazırlanması prosesində bütün qanunvericilik və Azərbaycan Mərkəzi Bankının normativ aktlarının tələblərinə riayət olunmasına nəzarət etmək;
- Müntəzəm olaraq Audit Komitəsinin fəaliyyəti haqqında (azı ildə bir dəfə) Müşahidə Şurasına və İştirakçıların Ümumi Yığıncağına hesabat vermək və müvafiq tövsiyələr təqdim etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

Mükafatlandırma Komitəsi mövcud deyildir.

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat:** Mövcud deyil.

## 15. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

**15.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Soyadı, Adı, Ata adı | Vətəndaşlıq | Adi səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Məmmədov Xəqani Əli oğlu | Azərbaycan Respublikası | 1800 | 100% |

**15.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi Emitentə nəzarəti nizamnamə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Cəmiyyətdə korporativ idarəetmə və daxili nəzarət mexanizmləri

qurulmuşdur. Cəmiyyətin fəaliyyəti lisenziyalı fəaliyyət olduğu üçün birbaşa Mərkəzi Bankın tənzimləmə obyektidir və kənar audit tərəfindən dövri olaraq yoxlamalar aparmaqdadır. Cəmiyyət qanunvericiliyin tələblərinə uyğun proses, prosedur, qaydalar toplusu və korporativ idarəetməyə malikdir. Cəmiyyətin payçısının Cəmiyyətdən birbaşa iqtisadi marağı, əldə olunmuş mənfəətin dividend şəklində götürülməsi və ya Cəmiyyətin inkişafına yönləndirilməklə potensialının və dəyərinin artırılmasıdır. İstiqrazlar üzrə öhdəliklər istənilən halda payçıların tələblərindən öncə ödənilməlidir. İstiqraz sahibləri Cəmiyyətin təqdim edəcəyi altı aylıq və illik maliyyə hesabatları vasitəsilə Cəmiyyətin mənfəətinin artıb azalmasına, dividend ödənişlərinə və nizamnamə kapitalının artıb azaldılmasına nəzarət etməklə müvafiq nəzarətin sui-istifadə edilmədiyindən əmin ola bilərlər.

**15.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Mövcud deyil.

## 16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Audit olunmuş maliyyə hesabatları əlavə olunur.

**<u>Maliyyə vəziyyəti haqqında hesabat</u>**

| **Göstəricilər** (Azərbaycan manatı ilə) | **31.12.2024 (audit olunmuş)** | **31.12.2023 (audit olunmuş)** | **31.12.2022 (audit olunmuş)** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 62152 | 132395 | 16069 |
| Müştərilərə verilmiş kreditlər | 42505020 | 11542589 | 276569 |
| Verilmiş avanslar | 1552 | 2672 | 2985 |
| Digər aktivlər | 64597 | - | - |
| **Cəmi aktivlər** | **42633321** | **11677656** | **295623** |
| **Öhdəliklər** | | | |
| Borc vəsaitləri | - | 154465 | 51092 |
| Kreditor borclar | 3666 | 1507 | 119 |
| İcarə öhdəlikləri | 4364 | 4364 | - |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 7809 | 2263 | 1422 |
| Mənfəət vergisi | 473210 | 26287 | - |
| Digər öhdəliklər | 39767457 | 11083622 | 5019 |

| | | | |
|---|---|---|---|
| **Cəmi öhdəliklər** | **40256506** | **11272509** | **57651** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 300000 | 300000 | 300000 |
| Bölüşdürülməmiş mənfəət (yığılmış zərər) | 2076815 | 105147 | (62028) |
| **Cəmi kapital** | **2376815** | **405147** | **237972** |
| **Cəmi öhdəliklər və kapital** | **42633321** | **11677656** | **295623** |

**Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| **Göstəricilər** (Azərbaycan manatı ilə) | **31.12.2024 (audit olunmuş)** | **31.12.2023 (audit olunmuş)** | **31.12.2022 (audit olunmuş)** |
|---|---|---|---|
| Faiz gəlirləri | 2593501 | 140259 | 20353 |
| Faiz xərcləri | (48393) | (3373) | (92) |
| **Xalis faiz gəlirləri** | **2545108** | **136886** | **20261** |
| Haqq və komissiya gəlirləri | 92831 | 169265 | 3827 |
| | | | |
| Haqq və komissiya xərcləri | **(15806)** | **(1059)** | **(920)** |
| **Xalis haqq və komissiya gəlirləri** | **77025** | **168205** | **2907** |
| **Digər əməliyyat gəlirləri** | **2929** | **512** | **34** |
| **Əməliyyat gəlirləri** | **2929** | **512** | **34** |
| Bank xərci | (1510) | (545) | (429) |
| İşçi heyəti üzrə xərclər | (127743) | (91191) | (52362) |
| Sair ümumi inzibati xərclər | (30504) | (20402) | (14523) |
| Kommersiya xərcləri | (679) | - | - |
| **Mənfəət vergisindən əvvəlki gəlir (zərər)** | **2464626** | **193465** | **(44111)** |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | - | (62028) | - |
| Mənfəət vergisi | (492925) | (26287) | - |
| Digər məcmu gəlir (xərc) | (33) | (2) | - |
| **İl üzrə mənfəət və cəmi məcmu gəlir** | **1971668** | **105147** | **(44111)** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| **Göstəricilər** (Azərbaycan manatı ilə) | **31.12.2024 (audit olunmuş)** | **31.12.2023 (audit olunmuş)** | **31.12.2022 (audit olunmuş)** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **Vergidən əvvəlki mənfəət (zərər)** | **2464626** | **193465** | **(44111)** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyyətindən daxil olan pul vəsaitlərinin axını** | **2464626** | **193465** | (44111) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | (30962431) | (11266021) | (276569) |
| Verilmiş avanslar | 1120 | 314 | 560 |
| Digər aktivlər | (64597) | - | - |
| Kreditor borclar | 2159 | 1388 | 119 |
| Vergi öhdəlikləri | 5546 | 841 | 981 |
| Digər öhdəliklər | 28683835 | 11082968 | 2071 |
| Borc alınmış vəsaitlər üzrə öhdəliklər (Cari ildəki faiz borcunda artma/azalma) | - | 3373 | 92 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **130258** | **16328** | **(316857)** |
| Ödənilmiş mənfəət vergisi | (46036) | - | - |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə edilmiş daxil olan xalis pul vəsaitləri** | **84222** | **16328** | **(316857)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Kapitalda artma (azalma) | - | (2) | - |
| Borc alınmış vəsaitlər üzrə xaricolmalar | (744365) | - | - |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 589900 | 100000 | 20000 |
| **Maliyyə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | (154465) | 99998 | 20000 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma** | - | - | - |
| **İlin əvvəlinə pul vəsaitləri və onların artması (azalması)** | **(70243)** | **116326** | **(296857)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **132395** | **16069** | **312925** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **62152** | **132395** | **16069** |

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| Göstəricilər<br>(Azərbaycan manatı ilə) | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (yığılmış zərər) | Cəmi Kapital |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **31.12.2022-ci il tarixinə qalıq** | **300000** | **(62028)** | **237972** |
| İl ərzində kapitalın artımı | - | - | - |
| Cari il üzrə xalis mənfəət(zərər) | - | 167175 | 167175 |
| **31.12.2023-cü il tarixinə qalıq** | **300000** | **105147** | **405147** |
| İl ərzində kapitalın artımı | - | - | - |
| Cari il üzrə xalis mənfəət(zərər) | - | **1971668** | **1971668** |
| **31.12.2024-cü il tarixinə qalıq** | **300000** | **2076815** | **2376815** |

**16.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitentin fəaliyyət müddəti bir ildən çoxdur.

**16.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını MHBS-yə uyğun hazırlayır.

**16.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin maliyyə hesabatları konsolidasiya olunmamış formada hazılanmışdır.

**16.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etməmişdir və audit olunmamışdır.

**16.6. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** 31 dekabr 2024-cü il tarixlərinə başa çatmış il üzrə maliyyə hesabatları Cəmiyyət rəhbərliyi tərəfindən 10 fevral 2025-ci il tarixində təsdiq edilmişdir.

**16.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bu növ hüquqi proseslər olmamışdır.

**16.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Emitentin 2024-cü ildə dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri fəaliyyətində mühüm dəyişiklik baş vermişdir. Belə ki, Emitentin nizamnamə kapitalı artırılmış və ümumi məbləğ 1 800 000 (bir milyon səkkiz yüz min) manat təşkil etmişdir. Nizamnamə kapitalının artırılması şirkətin maliyyə dayanıqlığını gücləndirmək, fəaliyyətinin genişləndirilməsi və strateji inkişaf planlarının icrasını dəstəkləmək məqsədilə həyata keçirilmişdir. Kapital artımı nəticəsində Emitentin maliyyə imkanları genişlənmiş, öhdəliklərin idarə olunması

qabiliyyəti yüksəlmiş və potensial investisiya layihələrinin maliyyələşdirilməsi üçün əlavə resurslar formalaşdırılmışdır. Kapitalın artırılması Emitentin səhmdarlarının uzunmüddətli inkişaf strategiyasına sadiqliyinin göstəricisi olmaqla yanaşı, gələcəkdə yeni maliyyə alətlərinin buraxılması, investor etimadının möhkəmləndirilməsi və bazar mövqelərinin daha da gücləndirilməsi üçün möhkəm baza formalaşdırmışdır.

## 17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

**17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

- Nizamnamə kapitalının miqdarı: 1 800 000;
- Nizamnamə kapitalını təşkil edən səhmlərin miqdarı: 1800;
- Nizamnamə kapitalını təşkil səhmlərin nominal dəyəri: 1000;
- Nizamnamə kapitalında imtiyazlı səhmlər barədə məlumat: Mövcud deyil.
- Nizamnamə kapitalını təşkil edən adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu: Səhmlər üzrə hüquqlar Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 106-1-ci və Cəmiyyətin Nizamnaməsinin 5-ci bəndində təsbit edilmişdir.

**17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 05.02.2021-ci il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**17.2.1. fəaliyyət və məqsədlərin təsviri:** "FNC Bank Olmayan Kredit Təşkilatı" QSC Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatıdır. 05 fevral 2021-ci il dövlət qeydiyyatına alındığı tarixdir. BKT- 41 saylı lisenziya əsasında fəaliyyət göstərir. Emitentin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəllə, Mərkəzi Bankın normativ xarakterli aktları ilə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

**17.2.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı.**

Ümumi Yığıncaq Emitentin ali idarəetmə orqanıdır. Ümumi yığıncağın hüquq vəzifələri, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ona müvafiq olaraq hazırlanmış emitentin nizamnaməsində nəzərdə tutulan müddəalar çərçivəsində həyata keçirilir.

**17.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

# İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

## 18. ƏSAS MƏLUMAT

**18.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC** - İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin (BFB) vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

Bu xidmətlərin göstərilməsinə görə BFB öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi** - Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis edilən qeyri-kommersiya hüquqi şəxsidir. Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Anderrayter** - "CPM-İnvest İnvestisiya Şirkəti" ASC İŞ-07 nömrəli, 14 noyabr 2022-ci il tarixli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "CPM-İnvest İnvestisiya Şirkəti" ASC bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "FNC BOKT" QSC-nin yeni buraxılıcaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "CPM-İnvest İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə "FNC BOKT" QSC-dən xidmət haqqı tutacaqdır. "FNC BOKT" QSC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişlərini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;
- Yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyildir. Emissiyada Emitentə aidiyyəti olan və digər əlaqəli şəxslər iştirak etmir.

18.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Emissiyanın məqsədi Cəmiyyətin "Kristal Bakı" ASC qarşısında olan borc öhdəliyinin vaxtında icra edilməsidir. Emissiyadan əldə edilən vəsait həmin borcun ödənilməsinə yönəldiləcək ki, nəticə etibarı ilə Cəmiyyətin maliyyə vəziyyətinin möhkəmləndirilməsi təmin ediləcək.

18.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Emissiya nəticəsində əldə edilən vəsait Cəmiyyətin borc öhdəliyinin ödənilməsinə kifayət etmədikdə, qalan borc məbləği Cəmiyyətin öz əsas vəsaiti və ya digər banklardan cəlb ediləcək vəsait hesabına ödəniləcək.

18.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Mövcud deyil.

## 19. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

19.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" və digər hüquqi aktlar.

19.2. **İstiqrazların növü və forması:** adlı, faizli, sənədsiz, təmin edilməmiş istiqraz

19.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı ayrılıqda göstərilməklə):**

| Göstəricilərin adı | İstiqrazların sayı | Nominal dəyəri |
|---|---|---|
| Yeni buraxılan | 950 | 5000 |
| Mövcud olan | Yoxdur | Yoxdur |

**19.4. İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN)

**19.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Hüquqi ünvanı: AZ1000, Bakı şəhəri, Bül-Bül prospekti, 27;

Faktiki ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower).

Telefon: (+99412) 538 31 90

E-mail: info@mdm.gov.az

**19.6. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

**19.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazla təsdiqlənmiş hüquqları alğı-satqı müqaviləsi bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazın nominal dəyərindən illik 15% olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Məhdudiyyətlər mövcud deyil.

**10.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** illik 15 (on beş) %

**19.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 15 (on beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 360 (üç yüz altmış) gündən bir ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 1800 (min səkkiz yüz) gün təşkil edir. Ödənişlər nağdsız qaydada, milli valyutada manatla ödəniləcəkdir. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcəkdir. İstiqrazların nominal

dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**19.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.11. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**19.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**19.13. Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**19.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Yeni emissiya edilən istiqrazlar təmin edilməmiş formadadır.

**19.15. İstiqrazların geri satın alınma şərtləri (olduqda):** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınması həyata keçirilə bilər. Emitent tərəfindən İstiqrazların geri satın alınması nəzərdə tutulduğu halda, bu barədə qərarın qəbul edildiyi andan 7 (yeddi) iş günü ərzində investorlara məlumat veriləcəkdir. Hər investorun sahib olduğu paya mütənasib qaydada istiqrazların nominal dəyəri və çağırılan günə toplanmış faizlər ödəniləcəkdir.

**19.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri – 5000 (beş min) Azərbaycan manatı;

D- İstiqrazların illik gəlirlik dərəcəsi – 15% (on beş faiz);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 360 (üç yüz altmış) gün.

**19.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

**19.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** "FNC Bank Olmayan Kredit Təşkilatı" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının 6 №-li, 25.07.2025-ci il tarixli Protokolu.

**19.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Möcvud deyil.

**19.20. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata

keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

19.21. **İstiqraz üzrə gəlirlərdən verginin tutulması barədə emitentin öhdəliyi:** Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

## 20. TƏKLİFİN ŞƏRTLƏRİ

20.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Yerləşdirmənin başlanma tarixi: emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra və istiqrazlar "Bakı Fond Birjası" QSC-də ticarətə buraxıldıqdan sonra başlanılacaqdır.
İstiqrazların yerləşdirilməsinə başlanması tarixinə ən azı 2 (iki) iş günü qalmış qiymətli kağızların yerləşdirilməsinin baş tutacağı tarix və hərracın keçirilməsi şərtləri "Bakı Fond Birjası" QSC-nin (https://www.bfb.az) və Emitentin (https://www.fnc.az) saytında investorlara açıqlanacaqdır.
Yerləşdirmənin başa çatma tarixi: yerləşdirmə başlanıldığı tarixdən qanunvericilikdə qeyd olunan müddətdə başa çatdırılacaqdır.

20.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklər barədə qərarı emitentin investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarı qəbul etmiş orqanı qəbul edir. Emissiya prospektinə dəyişikliklərin dövlət qeydiyyatına

alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində qanunvericilikdə məyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən on iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

20.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

20.4. **İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan həyata keçiriləcəkdir.

20.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar kütləvi təklif üsulu ilə birqiymətli hərrac vasitəsilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alğı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. Bir istiqrazın təklif qiyməti 5000 (beş min) manat təşkil edir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günün anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Yerləşdirmə müddəti ərzində investorlar tərəfindən qiymətli kağızların dəyəri yalnız pulla ödənilir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 (iki) iş günü qalmış BFB-nin internet saytında (https://www.bfb.az) və Emitentin internet saytında açıqlanır (https://fnc.az/).

20.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası**: İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar tərəfindən qiymətli kağızların dəyəri yalnız pulla ödənilir və bu pul vəsaiti yerləşdirmənin anderrayterinin agent bankı olan "Azər-Türk Bank"

ASC-də emitent üçün açılmış xüsusi hesabda saxlanılır. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

20.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər. İnvestorların kateqoriyaları dairəsinə dair hər hansı bir məhdudiyyət yoxdur.

20.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Yerləşdirmənin başlanma tarixi – yəni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin (https://www.bfb.az) və emitentin saytında (https://fnc.az/) investorlara açıqlanacaqdır. Yerləşdirmənin başa çatma tarixi: Qanunvericiliklə nəzərdə tutulmuş qaydada başa çatdırılacaqdır.

20.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 5000 (beş min) manat təşkil edir.

20.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

***Vergilər:***

AR Vergi Məcəlləsinin 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci maddəsində və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişikliklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

***Xərclər:***

- Bakı Fond Birjasının komissiyası – əqdin həcmindən 0.02%;
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətinin komissiyası – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq;
- Hesablaşma agentində olan bank hesabına pul köçürmələri zamanı bank-köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

**20.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı), xidmət haqqı:** İstiqrazlar "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin komisyon haqqı investor ilə bağlanılmış müqavilədən asılı olaraq təyin ediləcəkdir. "CPM-İnvest İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti 14.11.2022-ci il tarixli, İŞ-07 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Hüquqi/faktiki ünvanı: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə, ev 102A, "City Point Baku"

VÖEN: 1405409161

Telefon: (+99412) 460 70 00

Elektron poçt ünvanı: info@cpminvest.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: https://cpminvest.az/

Xidmət haqqı: Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**20.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** "FNC BANK OLMAYAN KREDİT TƏŞKİLATI" QSC və "CPM-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ" ASC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 21. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**21.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların ilkin yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə BFB-yə Emitent tərəfindən müraciət istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

"Bakı Fond Birjası" QSC-nin "Qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları"nın müddəalarına əsasən, qiymətli kağızlar kütləvi yerləşdirmə üsulu ilə Birjada yerləşdirilməsi nəzərdə tutulmuşdur. İstiqrazlar standart bazar listinqi seqmentinə daxil edilməsi nəzərdə tutulmuşdur.
"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti 2000-ci ildə təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.
BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
- dövlət qiymətli kağızlar bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Hüquqi ünvan: Bakı şəhəri, Səbail rayonu, Bülbül prospekti, ev 19, AZ1095
Faktiki ünvan: Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi Küçəsi 2A
VÖEN: 1700262271
Lisenziya müddəti: müddətsiz
Elektron poçt ünvanı: info@bfb.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: https://www.bfb.az/az

21.2. **Market meyker(lər) barədə məlumat (olduqda):** Bazar şəraitini nəzərə alaraq, Emitent likvidliyinin qorunması məqsədi ilə marketmeyker(lər) cəlb edilə bilər.

## 22. KREDİT REYTİNQLƏRİ

22.1. **Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil.